


# TEATR FƏDAİSİNƏ EHTİRAMLA...

Həyat adlı əbədiyyət yolunun 150-ci dayanacağından şəstlə gələcəyə boylanan və sonrakı onilliklərdə də özünün yaşarılıq təntənəsinə əminlik ifadə edən Azərbaycan professional teatrının banilərindən biri, görkəmli aktyor, teatr xadimi və pedaqoq Cahangir Zeynalov həmişəyaşar timsallı insanlardandır.

Mədəniyyətimizin tərəqqisi yolunda böyük xidmətlərinə rəğmən, həyat və yaradıcılığı hələ dərindən öyrənilməyən görkəmli aktyor və teatr xadimi, pedaqoq Cahangir Zeynalovun xatirəsi 150 illik yubileyi münasibətilə həm də teatrşünasların, tədqiqatçıların, sənətsevərlərin araşdırmaları işığında anıldı.

Belə ki, dekabrın 21-də Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) "Teatr tarixinin Cahangiri tədqiqat müstəvisində" mövzusunda elmi-praktik konfrans keçirildi.

Mədəniyyət və İncəsənət Universiteti ilə birgə təşkil olunan tədbirdə çıxış edən ATXİ-nin sədri, Xalq artisti Azər Paşa Nemət görkəmli sənətkarın Azərbaycan teatr tarixində müstəsna xidmətlərindən söz açaraq onun Bakıda fəaliyyət göstərən aktyor truppaları ilə yaxından əlaqələr qurub digər xalqların da aktyor kollektivlərinin tamaşalarında iştirak etdiyindən, aktyorluq və rejissorluqla yanaşı, yazıçı kimi də fəaliyyət göstərdiyindən və bir çox başqa fəaliyyət dairəsindən danışdı.

Konfransda sənətkarın yaradıcılığı, teatr və kino tarixində zəngin xidmətlərinə dair məruzələr dinlənildi, dəyərli və keşməkeşli həyat yolu ilə bağlı maraqlı faktlara toxunuldu. Sənətşünaslıq doktoru, professor, Əməkdar incəsənət xadimi Məryəm Əlizadə "Azərbaycan teatr mədəniyyətində Cahangir Zeynalovun yeri", professorlar İlham Rəhimli "Azərbaycan teatr tarixi və Cahangir Zeynalov", İsrafil İsrafilov "Cahangir Zeynalov: şəxsiyyət və zaman", Aydın Talıbzadə "Kəblə Cahangirin teatrı", Rafiq Sadıxov "Cahangir Zeynalov dövrün mətbuatında", sənətşünaslıq üzrə fəlsəfə doktoru Vidadi Qafarov "Azərbaycan teatrının Cahangiri" mövzuları ilə böyük sənətkarın taleyinə və sənətinə işıq saldılar.

Çıxışlarda teatrın təşəkkül və tərəqqisi üçün yorulmadan çalışan, bütünlükdə həyatını səhnəsiz təsəvvür belə etməyən sənət fədaisinin örnək fəaliyyətindən müxtəlif məqamlar diqqətə çatdırıldı.

Sonda söz baba Cahangirin davamçısına – tanınmış aktyor və rejissor, Əməkdar incəsənət xadimi, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzova verildi. Kövrək notlu çıxışında babası barədə çox yerdə səslənməyən faktları xatırladan nəvə Cahangir, Azərbaycan teatrına verdiyi dəyərin təzahürü olaraq imzaladığı sərəncama görə ölkə başçısına minnətdarlığını bildirdi. Babası barədə nənəsindən, eləcə də onunla bağlı bilgili insanların xatirə "boğça"sından seçdiklərini konfrans iştirakçılarıyla bölüşdü, babasının həyatı, yaşantıları və elə ömrünün son günləriylə bağlı eşidib bildiyi faktları incəlikləri ilə diqqətə çatdırdı. Beləcə, munis məclisdə bir insan ömrünün ayrı-ayrı məqamları gözlər önündə sərgiləndi.

## 150 ilin bir gecəlik təntənəsi

Dekabrın 23-də isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Kaş ki min canım olaydı, minini də millətimə qurban vermiş olaydım" deyən sənətkarın 150 illiyi qeyd olundu. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən təşkil edilən tədbir özlüyündə bir möhtəşəmlik nümayişi idi.

Teatrın salonuna toplaşan sənətsevərlər yüzilliyin o tayından bizlərə sənət sevgisi aşılayan sənətkarı alqışlarla mükafatlandırmaq, xatirəsinə sayğı ruhunda idilər.

Yubiley gecəsinin iştirakçıları öncə teatrın foyesində Dövlət Teatr Muzeyinin arxivində qorunan foto və afişa nümunələri, Cahangir Zeynalova göndərilən məktublar, yaradıcılığının 25 illiyi münasibətilə təşkil olunan benefisin proqramı və digər bu kimi tarixi məqamları əks etdirən nümunələrdən ibarət sərgi ilə qarşılaşdılar.

Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan teatr tarixinin bir çox dəyərli səhifələrinin Cahangir Zeynalovla bağlı olduğunu, onun qüdrətli sənətkar kimi oynadığı bütün rolları öz canlı müşahidələri sayəsində daim yeni cizgilərlə zənginləşdirdiyini, həmin sənət məktəbinin parlaq ənənələrinin bu gün də davam etdiyini söylədi:

*"Cahangir Zeynalov teatr ictimaiyyəti tərəfindən yubileyi təntənəli şəkildə qeyd edilən ilk Azərbaycan aktyorudur. Həmin yubiley tədbiri aktyorun səhnə fəaliyyətinin 25 illiyi münasibətilə "Nicat" cəmiyyəti tərəfindən keçirilib. Görkəmli sənətkar müdrik şəxsiyyəti ilə mənəvi-əxlaqi dəyərlərə yüksək qiymət verib və gələcək nəsillər də onu eyni ehtiramla yad edəcək. Böyük teatr xadiminin yubileyinin keçirilməsi haqqında ölkə başçısının imzaladığı sərəncam da buna bariz nümunədir".*

Tədbirin qonağı, TÜRKSOY-un baş katibi Düsen Kaseinov da Azərbaycanın böyük aktyoru, türk dünyasının sənət qurucularından olan Cahangir Zeynalovun yubiley tədbirində iştirakından məmnunluğunu dilə gətirdi, ümumilikdə onun türk dünyasında professional aktyorluq sənətinin təkrarsız örnəyini yaratdığını dedi.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Azər Paşa Nemət Cahangir Zeynalovun sənət dünyasından və onun Azərbaycan teatr sənətinin inkişafı naminə gördüyü işlərdən söz açdı.

## "Qu quşunun nəğməsi"

**... Belə bir sənətkarı yad etməyin, ona olan ehtiramın ən gözəl nümunəsi tamaşa və tamaşaçı alqışıdır. Bu alqışları yubilyara böyük sənətkarın nəsil və sənət davamçısı olan nəvə Cahangir bəxş edib. "Cahangirdən Cahangirə" layihəsi çərçivəsində Əməkdar incəsənət xadimi, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzovun quruluşunda A.P.Çexovun "Kalxas" əsəri əsasında səhnələşdirilən "Qu quşunun nəğməsi" tamaşası da belə sürəkli alqışın ünvanı oldu.**

Səhnə əsərində həm də baş rolun ifaçısı olan Cahangir Novruzov, istedadlı aktyor Hikmət Rəhimovla birlikdə məşhur sənətkarın həyatını, ruhi sarsıntılarını və teatra fəda etdiyi ömrün sonundakı qaranlığını nümayiş etdirdi. Əsəri babası Cahangir Zeynalovun, anası Nəsibə Zeynalovanın, yaxın dostu Yaşar Nurinin və dünyasını dəyişmiş bütün sənət adamlarının xatirəsinə ithaf etdiyini deyən Cahangir Novruzov bir aktyorun parlaq səhnələrdən sonrakı ruhi tənhalığını, yalqızlığın faciələrini tamaşaçıya göstərə bildi. Beləcə, iki qəhrəman – Svetlovidov (Cahangir Novruzov) və suflyor Nikita İvanoviç (Hikmət Rəhimov) teatrdan, ömrünü səhnəyə həsr edən aktyorun çəkdiyi qəlb ağrılarından, iztirablarından tamaşaçıları ustalıqla hali etdi.

Sənətə qiymət verilməyən yerdə sənətkarın məhvə sürükləndiyi həqiqətini hayqıran sonluq Azərbaycan teatr səhnəsindən keçən müqtədir sənətkarların fotoşəkillər karvanı ilə müşayiət olundu. Tamaşaçıları silkələyən acı həqiqətlər fonunda zaman-zaman alqış payını almış, teatrların səhnələrinə ruhu hopmuş məşhur aktyorlar, rejissorlar, ömrünü teatr adlı məbədə qurban vermiş insanların da ruhu 150 illik yubiley gecəsinə toplaşanların alqışları ilə bir daha şad oldu.

## Tamaşaçıya ehtiramla

Sonda səhnəyə çıxan nəvə Cahangir ürək sözlərini yubiley iştirakçıları ilə bölüşdü. Kövrək notlu çıxışında babasının









150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayan ölkə başçısına ailələri adından təşəkkür etdi, ümummilli lider Heydər Əliyevin Xalq artisti Nəsibə Zeynalovanın yaradıcılığına diqqətlə yanaşdığını xatırladı. Bu sərəncamı xalqın sənət fədailərinə, Zeynalovlar ailəsinə ehtiramı kimi dəyərləndirdi, yubiley tədbirlərinin təşkilinə görə Mədəniyyət və Turizm Nazirliyinə minnətdarlığını bildirdi.

Həmidə Nizamiqızı